# V BÖLMƏ.
# BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏR, DAYANIQLI İNKİŞAFIN DÜNYA TƏCRÜBƏSİ, İQTİSADİ RAYONLARIN İNKİŞAFI VƏ MARKETİNQ FƏALİYYƏTİ

**UOT:330.35; J; L81.EL: O47**

***Zahid Sarvan oğlu CƏFƏROV***
***Bakı Avrasiya Universiteti, magistr,***

***Elmi rəhbər: Müslümat Allahverdi qızı ALLAHVERDİYEVA***
***i.e.n., dos., Azərbaycan Dövlət İqtisad Universiteti***
***E-mail:allahverdiyeva_muslumat@mail.ru***

## AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ RAYONLARININ MÜASİR İNKİŞAF XÜSUSİYYƏTLƏRİ (DAĞLIQ-ŞIRVAN İQTİSADİ RAYONU)

*Xülasə*

Hazırkı mərhələdə dövlət regionların potensialından daha dolğun istifadə etmək məqsədilə kompleks tədbirlər həyata keçirir.Belə tətbirlərin nəticəsi olaraq ölkəmiz regionlarda sahibkarlığın inkişafına, yoxsulluğun azaldılmasına, makroiqtisadi sabitliyin davam etdirilməsinə nail olacaqdır. Buna görə də hər bir regionun ölkə iqtisadiyyatındakı yeri və rolu kompleks şəkildə öyrənilməlidir.

**Tədqiqatın məqsədi** -Tədqiqatın məqsədi regionun sosial-iqtisadi inkişafının öyrənilməsi üçün nəzəri əsasları inkişaf etdirmək və regionun davamlı sosial-iqtisadi inkişafını formalaşdırmaq üçün müəyyən olunmuş prioritetlərin həyata keçirilməsində praktik tövsiyələr verməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası** - araşdırılan problemə sistemli və kompleks yanaşma, habelə Azərbaycan Respublikasının iqtisadi rayonlarının müasir inkişaf xüsusiyyətlərinin (Dağlıq-Şirvan iqtisadi rayonu) müxtəlif aspektlərdən müqayisəli təhlili, ümumiləşdirilməsi və qiymətləndirilməsi ilə bağlı metodlardan istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** - alınmış nəticələrdən Azərbaycan Respublikasının iqtisadi rayonlarının müasir inkişaf xüsusiyyətləri ilə bağlı nəzəri və praktiki problemlərin həll olunmasında istifadə edilə bilər.

**Tədqiqatın nəticələri** - qlobal çağırışlar və ölkənin müasir inkişaf səviyyəsi nəzərə alınmaqla Azərbaycan Respublikasının iqtisadi rayonlarının müasir inkişafının optimallaşdırılması üzrə təklif və tövsiyələrin hazırlanmasından ibarətdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** - məqalədə baxılan problemlərin həlli üzrə dünya təcrübəsi tədqiq olunmaqla müasir şəraitin tələblərinə uyğun yanaşmalar formalaşdırılmışdır. Beynəlxalq, regional və ayrı-ayrı milli iqtisadiyyatlar səviyyəsində Azərbaycan Respublikasının iqtisadi rayonlarının müasir inkişafının istiqamətləri təhlil edilmişdir.

***Açar sözlər: sosial, region, iqtisadi inkişaf, dövlət proqramı, Zəngəzur.***

### *Giriş*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 7 iyul 2021-ci ildə işğaldan azad olunmuş torpaqların inkişafı və Azərbaycan iqtisadiyyatına inteqrasiyası, həm də planlaşmanın digər iqtisadi yollarla inkişafı ilə bağlı olaraq əmr imzalamışdır. Bu əmrə əsasən ölkədə yeni planlaşma aparılmış və 14 iqtisadi rayon fərqləndirilmişdir. Bakı, Abşeron, Xızı, Quba, Xaçmaz, Dağlıq Şirvan, Şəki, Zaqatala, Mil-Muğan, Mərkəzi Aran, Şirvan, Salyan, Gəncə, Daşkəsən, Qazax-Tovuz,

Qarabağ, Şərqi Zəngəzur, Lənkəran, Astara və Naxçıvan. Bunlar beş təbii iqtisadi rayonda birləşmişdir. (Böyük Qafqaz, Kiçik Qafqaz, Kür-Araz, Lənkəran, Naxçıvan)

Bizim ərazi bütövlüyümüz bərpa olunandan sonra quruculuq və bərpaedici işlər görülür, nəqliyyat və kommunikasiya şəbəkəsi yaradılır. Füzuli şəhərində artıq yeni aeroport inşa edilmiş və Zəngilanda, Laçında yeni aeroportlar tikilməyə başladı. Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan şəhərlərində, əsasən də, Şuşa şəhərində geniş masştablı tikinti işləri görülməyə başlayıb. Füzuli şəhərindən Şuşa şəhərinə qədər “Qələbə yolu” adlı yol salınır. Şəhərlərdə və kəndlərdə ekoloji təmiz mühit yaratmaq üzrə tədbirlər görülür, yeni daha təbii və ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsulları yaradılır, yeni park və aqroparklar salınır. Zəngilanda “Ağıllı kənd” layihəsi çərçivəsində işlər görülür. Gələcək perspektivdə bu ərazidə ən mühüm və strateji əhəmiyyətli məsələ Zəngəzur koridorudur.

Məlumdur ki, ölkəmiz əlverişli coğrafi mövqedə yerləşir və zəngin təbii ehtiyatlara malikdir. Lakin ölkəmizin sosial-iqtisadi inkişafına dəstək olan regionlarda kəskin fərqlər aydın görünür. Belə ki, iqtisadi resuslar regionlar üzrə qeyri-bərabər bölünmüş və nəticədə regionlar arasında inkişaf səviyyəsində kəskin fərqlər yaranmışdır. Xüsusilə əsas infrastruktur sahələrinin paytaxtda yerləşməsi əhalinin regionlardan şəhərə axınını sürətləndirmişdir. Bu amil regionların təsərrüfat fəaliyyətinin inkişafına mənfi təsir göstərmişdir [5]. Bununla bağlı olaraq dövlət regionların sosial-iqtisadi inkişafının tənzimlənməsini qarşısına vacib məqsəd kimi qoymuşdur.

Ümumilikdə həyata keçirilən məqsədyönlü sosial-iqtisadi islahatlar,maliyyə imkanları,iqtisadi artım, ehtiyat fondları ölkəmizin iqtisadiyyatının müasir vəziyyətini özündə əks etdirir. Qeyd olunanlar regional sosial-iqtisadi inkişafın təminatı baxımından əsas olduğu üçün maddi və təbii resursların hərəkətini tələb edir. Buna görə də, investisiya siyasətində məqsədyönlü tətbirlərin həyata keçirilməsini sürətləndirmək lazımdır.

Hazırkı mərhələdə dövlət regionların potensialından daha dolğun istifadə etmək məqsədilə kompleks tədbirlər həyata keçirir. Belə tətbirlərin nəticəsi olaraq ölkəmiz regionlarda sahibkarlığın inkişafına, yoxsulluğun azaldılmasına, makroiqtisadi sabitliyin davam etdirilməsinə nail olacaqdır. Buna görə də hər bir regionun ölkə iqtisadiyyatındakı yeri və rolu kompleks şəkildə öyrənilməlidir. [4]

Ümumillikdə ölkəmiz üçün qarşıda duran əsas məqsədlərdən biri iqtisadi rayonları üzrə prioritet istiqamətlərin müəyyən edilməsi və bu prioritet sahələrin inkişafının stimullaşdırılması olmalıdır.

Dünyanın bir çox ölkələrində regionların sosial-iqtisadi inkişafı üzrə inkişaf proqramları hazırlanır və regionlararası prioritet istiqamətlər müəyyən edilir. Belə proqramlara nümunə olaraq Şimali İrlandiyada, Uelsdə, Şotlandiyada elektronika,avtomobil, yeyinti məhsullarının istehsalı sahəsində uğurla istifadə olunan təcrübəni göstərmək olar. Həmçinin İngiltərədə proqnoza əsaslanan texnoloji proqramlar vardır ki, bu proqramların icrası nəticəsində ölkənin regionlarında innovasiyaların tətbiqi sürətlənir.

**Dövlətin “Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişaf proqramı” nın həyata keçirilməsi**

Bizim ərazi bütövlüyümüz bərpa olunandan sonra quruculuq və bərpaedici işlər görülür, nəqliyyat və kommunikasiya şəbəkəsi yaradılır. Füzuli şəhərində artıq yeni aeroport inşa edilmiş və Zəngilanda, Laçında yeni aeroportlar tikilməyə başladı. Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan şəhərlərində, əsasən də, Şuşa şəhərində geniş masştablı tikinti işləri görülməyə başlayıb. Füzuli şəhərindən Şuşa şəhərinə qədər "Qələbə yolu" adlı yol salınır. Şəhərlərdə və kəndlərdə ekoloji təmiz mühit yaratmaq üzrə tədbirlər görülür, yeni, daha təbii və ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsulları yaradılır, yeni park və aqroparklar yaradılır. Zəngilanda “Ağıllı kənd” layihəsi çərçivəsində işlər görülür. Gələcək perspektivdə bu ərazidə ən mühüm və strateji əhəmiyyətli məsələ Zəngəzur koridorudur. [1]

İndi isə Böyük Qafqazın təbii iqtisadi rayonu-Bakı iqtisadi rayonuna baxaq. Sahəsi 2.14 min $km^2$, əhalisi 2300,5 min nəfərdir (2021). Bu iqtisadi rayon Bakı şəhərinin inzibati ərazisində 12 rayonu özünə daxil edir. Bu iqtisadi regionda bütün əhali Bakıda və ona yaxın olan qəsəbələrdə yaşayırlar. Ona görə də Bakı iqtisadi rayonu şəhər əhalisinin sayına görə, qəsəbələrin sayına görə,

ərazinin mənimsənilməsinə görə, əhalinin sıxlığına görə, istehsalın konsentrasiyasına görə, infrastrukturun inkişaf səviyyəsinə görə fərqlənir. Əhalinin 42,9%-i Bakıda və onun ətraf qəsəbələrində yaşayırlar. Bakı Cənubi Qafqazda ən böyük aqlomerasiyadır. Bu iqtisadi rayonun əsas təbii resursları neft, təbii qaz, kvarsit, neft-kimya, kimya, metallurgiya, maşınqayırma, neft maşınqayırması, elektrotexnika sahəsi çox güclü inkişaf etmişdir.[11]

Bu rayonda xaricdən gətirilmiş qara və əlvan metallar, tikinti materialları, yüngül və yeyinti sənayesi üçün xammal emal olunur. Bu rayonun kənd təsərrüfatı sahəsində ət-süd maldarlığı, quşçuluq, qoyunçuluq, tərəvəzçilik, bağçılıq, üzümçülük, quru subtropik meyvəçilik, zeytun, badam, əncir, ağ və qara üzüm növləri də yetişdirilir. Bu iqtisadi rayonuda yay və qış qoruqları var. [6]

Quba-Xaçmaz iqtisadi rayonuna Xaçmaz, Quba, Qusar, Siyəzən, Şabran inzibati rayonları daxildir. Bu iqtisadi rayonun Xəzəd dənizinə çıxışı var. Azərbaycanı Rusiya ilə birləşdirən nəqliyyat-kommunikasiya xətləri bu regiondan keçir. Bu iqtisadi rayonun iqtisadi yerləşməsi yaxşı hesab edilir. Neft, qaz, qum, gil əsas təbii ehtiyatlar hesab olunur. Respublikanın əsas istirahət zonaları da bu iqtisadi rayonda yerləşir. Qalaaltı, Nabran, Yalama da bu iqtisadi rayonda yerləşir.

Quba, Xaçmaz xalçaçılıq, Xaçmazda eyni zamanda buğda emalı, Qubada süd emalı, Siyəzəndə neft, Xaçmazda istilik-elektrik stansiyası var.

Şəki-Zaqatala iqtisadi rayonunda Balakən, Qax, Qəbələ, Zaqatala, Oğuz, Şəki inzibati rayonu var. Qəbələdə konserv kombinatı var, Şəkidə modul istilik-elektrik stansiyası, Şəkidə ipəkçilik kombinatı mövcuddur. Burada kəlağayı, yaylıqlar, barama istehsal olunur. Bu iqtisadi rayonda tütün, qoz, fındıq, buğda yetişdirilir.

Yevlax-Balakən dəmiryolu və avtomobil magistralı bu iqtisadi rayonu digər rayonlarla birləşdirir. Şəki rayonu bu iqtisadi regionun əsas elmi, mədəni, sənaye, turizm şəhəridir. Kiçik Qafqaz təbii iqtisadi rayonuna nəzər salaq.Gəncə-Daşkəsən iqtisadi rayonu Kiçik Qafqaz təbii iqtisadi rayonunun əsas tərkib hissəsidir.

Bu rayon ölkənin qərbində Azərbaycanı, Gürcüstanı Qara dəniz sahilləri ilə birləşdirən nəqliyyat-kommunikasiya xətləri üzərində yerləşir. Bu rayon çox əlverişli iqtisadi yerləşməyə sahibdir. Gəncə, Daşkəsən ölkənin ən inkişaf etdiyi rayondur. Dəmir filizi, alunit, mərmər, gips kimi əsas yeraltı təbii ehtiyatlar var. Daşkəsəndə dəmir filizi, qızıl, mis ehtiyatları var. Göygöl, Hacıkənd turizm inkişaf edən məkanlardandır. Bu iqtisadi rayonda əsas ağırlıq Daşkəsənin üzərinə düşür. Bakı - Qazax dəmiryolu və avtomobil yolu bu ərazidən keçir. Gəncədə beynəlxalq aeroport fəaliyyət göstərir. Bakı-Ceyhan, Bakı - Supsa neft xətləri, Bakı – Ərzurum - Tanap qaz xətləri bu ərazidən keçir. [8]

Qazax-Tovuz iqtisadi rayonu Kiçik Qafqazın digər bir önəmli iqtisadi rayonudur. Bura Ağstafa, Qazax, Gədəbəy, Tovuz, Şəmkir inzibati rayonları daxildir. Qazax-Tovuz iqtisadi rayonu Gürcüstan, Ermənistan sərhədində, ölkənin qərbində yerləşir. Bu iqtisadi rayonda qızıl, mis, bentonit gil, seolit hasil edilir. İqtisadi rayonda əsas ağırlıq Gədəbəydə yerləşir. Əlvan metallurgiya, tikinti materialları, yeyinti sənayesi bu iqtisadi rayonda mövcuddur. Şəmkir və Şəmkirçay su-elektrik stansiyası elektrik enerjisi ilə təmin edilir. Üzümçülük, kartof istehsalı, buğda, heyvandarlıq əsas kənd təsərrüfatı sahələridir.

Bakı-Ağstafa, Bakı-Qazax boru xətləri, Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Tanap, Bakı-Ərzurum bu rayondan keçir. Qarabağ iqtisadi rayonu - bu rayona Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa, Tərtər, Xankəndi şəhərləri daxildir. Bu rayon Şərqi Zəngəzurla Mil-Muğan və Mərkəzi Aran iqtisadi rayonlarının aralığında yerləşir. Bu rayonun çox əlverişli ərazi yerləşməsi mövcuddur. Kür-Araz təbii iqtisadi rayonun tərkibinə əsas Mərkəzi Aran iqtisadi rayonu daxildir. Bu iqtisadi rayonun tərkibinə Mingəçevir, Yevlax, Ağdaş, Göyçay, Kürdəmir, Ucar daxildir. Kür-Araz ovalığının qərb hissəsinə daxildir. Bu iqtisadi rayonun əksər hissəsi Şirvan düzənliyində yerləşir. Beynəlxalq və yerli əhəmiyyətli Bakı-Ağstafa yolu, neft və qaz boru kəməri yollarının olması bu iqtisadi rayonun strateji əhəmiyyətini artırır. Mingəçevirdə ADSES yerləşir. Bundan başqa pambıqtəmizləmə zavodu mövcuddur. Burada şərab, konyak, ət, süd və buğda məhsulları, meyvə və tərəvəz malları var. Burada pambıqçılıq, subtropik və bağçılıq malları, heyvandarlıq inkişaf etmiş-

dir. Kür çayı çox əhəmiyyətlidir. Burada çox iri balıqyetişdirmə zavodu var. Son illərdə Ləki-Qəbələ dəmiryol xətti, Yevlax-Kürdəmir dəmiryol xətti qurulmuşdur.

Kiçik Qafqaz iqtisadi rayonuna Şirvan-Salyan iqtisadi rayonu daxildir.

Bu iqtisadi rayonun tərkibinə Şirvan, Biləsuvar, Hacıqabul, Neftçala, Salyan inzibati rayonları daxildir.

Bu rayon Kür-Araz ovalığının şərqində yerləşir. Bu ərazidən dəmiryol xətləri, avtomobil yolları, Bakı-Ağstafa, Bakı-Astara ixrac qaz-neft kəmərləri keçir.

Salyanda plastmas zavodu, Nefçalada yod-brom zavodu, Şirvanda Cənub DRES yerləşir. Pambıqtəmizləmə zavodu (Salyan və Nefçalada) mövcuddur. Biləsuvarda meyvə-tərəvəz konserv zavodu var. Xıllı qəsəbəsində balıqyetişdirmə zavodu var. Osmanlı-Astara dəmiryol xətti var.

Mil-Muğan iqtisadi rayonu - Mil-Muğan düzənliyində yerləşir. Cənubda İranla dövlət sərhədi var. Hacıqabul-Horadiz avtomobil yolu, Yevlax-Ağcabədi-Bayramtəpə, Bayramtəpə-Biləsuvar avtomobil və dəmiryolları çox əhəmiyyətlidir. Bu iqtisadi rayonda tikinti materialları ( daş-kubik, qum, qrabin və s.) istehsal olunur. Bu iqtisadi rayonda Sabirabad və Saatlıda pambıq xammalı istehsal olunur.

Lənkəran təbii iqtisadi rayonuna Lənkəran, Astara iqtisadi rayonu daxildir. Burada Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı, Yardımlı inzibati rayonları var. Əsas şəhər Lənkəran şəhəridir. Bu iqtisadi rayon Xəzər dənizinin sahillərində (cənub) yerləşir. Bu rayon təbii resurslarla zəngin deyildir. Lənkəran Azərbaycanın ən çox məskunlaşan ərazilərindəndir. Lənkəran və Masallıda meyvə-tərəvəz konserv zavodu, Cəlilabadda şərab zavodu fəaliyyət göstərir.[7]

Naxçıvan iqtisadi rayonu- bu iqtisadi rayon Türkiyə və İranla sərhəddir. Zəngəzur koridorunun açılması bu rayonu digər rayonlarla əlaqələndirəcək və tranzit əhəmiyyəti artacaq. Bu rayona Naxçıvan, Babək, Ordubad, Sədərək, Şahbuz, Kəngərli, Culfa, Şərur inzibati rayonu daxildir. Kəngərli rayonuna inzibati mərkəz olaraq Qıvraq, Sədərək, Heydərabad daxildir.

Naxçıvanın təbii resursları polimetalik faydalı qazıntılar, (Gümüşlü) mis-molibden filizləri (Paraqaçay), daşduz, tikinti materialı, mərmər, travetin, tikinti daşı, çips var. Batabat dağ gölü, İlandağ tarixi abidələri bu rayonun iqtisadi əhəmiyyətini artırır.Azərbaycan Respublikasının əsas sosial-iqtisadi göstəricilərinə diqqət etsək qeyd etdiyimiz göstəricilər üzrə ən azı 1.04 dəfə artmışdır. Əhalinin sayı, məşğul əhalinin sayı demək olar ki, 1.04 dəfə artmışdır. Dövlət büdcəsinin gəlir və xərcləri də demək olar ki, eyni qədər ( 1.5 dəfə) artmışdır

***Cədvəl 1.***

***Azərbaycan Respublikasının əsas sosial-iqtisadi göstəriciləri***

| № | Göstəricilər | 2015 | 2017 | 2019 | 2020 | 2021 | 2021-ci ildə 2015-ci ilə nisbətən dəyişiklik |
|---|---|---|---|---|---|---|---|
| 1 | Əhalinin sayı (min nəfər) | 9705.6 | 9898.1 | 10067.1 | 10119.1 | 10156.4 | 1.04 dəfə |
| 2 | Məşğul əhalinin sayı (min nəfər) | 4671.1 | 4822.1 | 4879.3 | 4938.2 | 4876.2 | 1.04 dəfə |
| 3 | Ümumi daxili məhsul (mln. manat) | 54380 | 70337 | 80092 | 72578 | 92857 | 1.7 dəfə |
| 4 | Dövlət büdcəsinin gəlirləri (mln. manat) | 17498 | 16516 | 24508 | 26078 | 26631 | 1.5 dəfə |
| 5 | Dövlət büdcəsinin xərcləri (mln. manat) | 17784.5 | 17594 | 21425 | 26416 | 27422 | 1.5 dəfə |

*Mənbə Azstat.org məlumatları əsasında tərtib edilmişdir.[10]*

Cədvəl 1-ə görə Azərbaycan Respublikasının əhalisi 2022-ci ilin yanvar ayının 1-nə görə 10.1 mln nəfərdir. Ərazisi isə 86.6 min $m^2$-dır . Həmin ilin yenə 1 yanvar tarixinə təsərrüfat subyektlərinin sayı (həm hüquqi şəxs, həm də fiziki şəxslər olmaqla) cəmi 1.336.061 ədəddir. Bunun 429696 - sı Bakı şəhərində yerləşir.

Bu təxminən 32%-ə bərabərdir. Fəaliyyət göstərən bütün təsərrüfat subyektlərinin 32%-i Bakıda yerləşir. Bakı şəhərində isə bütün Azərbaycan əhalisinin 20%-i yəni 2.09 mln. nəfər yaşayır. Ərazisi isə bütün Azərbaycan ərazisinin 2.7%- ni təşkil edir. Göründüyü kimi Bakı şəhəri çox böyük əhəmiyyət daşıyır, bu daha çox strateji əhəmiyyətlidir. Bütün ÜDM-in (105.3 mlrd. manat) 70.4 mlrd. manatı Bakı şəhərində əldə edilir. Bu 70% təşkil edir. Bu, əsas ağırlıq mərkəzinin Bakı şəhərinin üzərinə düşdüyünü aydın olaraq göstərir.

*Cədvəl 2*

***Azərbaycan Respublikasının iqtisadi rayonlarının göstəriciləri. (2021)***

| S/s | Göstəricilər | Əhali, ərazisi min nəfər | Təsərrüfat subyektlərinin sayı | Əsas sahələr üzrə mlrd ÜDM | Sənaye ÜDM | Kənd Təsərrüfatı | Ticarət | İnvestisiya |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | Azərbaycan Respublikası | 10156 (86.6) | 1336.061 | 105.3 | 55.2 | 9.1 | 44.2 | 16.8 |
| 2 | Bakı şəhəri | 2003 (2.14) | 429696 | 70.4 | 45.3 | 0.1 | 25.6 | 10.1 |
| 3 | NaxçıvanMR | 463 ( 5.5) | 35969 | 3.8 | 1.0 | 0.5 | 1.7 | 0.1 |
| 4 | Abşeron Xızı | 579(3.73) | 73242 | 6.1 | 4.1 | 2.3 | 1.8 | 1.2 |
| 5 | Dağlıq Şirvan | 326(6.13) | 39334 | 0.96 | 0.88 | 0.4 | 0.7 | 0.2 |
| 6 | Gəncə- Daşkəsən | 612(5.27) | 78965 | 2.2 | 0.8 | 0.3 | 1.8 | 0.4 |
| 7 | Qarabağ iqtisadi rayon | 908(8.98) | 79547 | 2.8 | 1.9 | 0.9 | 1.0 | 1.3 |
| 8 | Qazax-Tovuz | 690(7.03) | 91804 | 2.4 | 0.4 | 0.1 | 1.6 | 0.2 |
| 9 | Quba-Xaçmaz | 561(6.93) | 77387 | 2.1 | 0.3 | 0.9 | 1.04 | 0.4 |
| 10 | Lənkəran Astara | 959(6.07 | 124139 | 1.9 | 0.3 | 0.8 | 1.9 | 0.2 |
| 11 | Mərkəzi Aran | **** | 85426 | 2.4 | 0.6 | 0.9 | 2.2 | 0.2 |
| 12 | Mil-Muğan | 526(5.67) | 65286 | 1.9 | 0.5 | 0.8 | 1.1 | 0.8 |
| 13 | Şəki-Zaqatala | 632(8.8) | 81365 | 1.8 | 0.4 | 0.7 | 1.3 | 0.2 |
| 14 | Şərqi Zəngəzur | *** | 4928 | 0.96 | 0.08 | 0.9 | ** | 0.8 |
| 15 | Şirvan-Salyan | 504(6.08) | 68868 | 2.1 | 0.8 | 0.6 | 1.4 | 0.1 |

*Mənbə: Azstat.org məlumatları əsasında tərtib edilmişdir.[11]*

**İqtisadi rayonların təhlili.** ÜDM, ÜDM-də sənaye, kənd təsərrüfatı payı, investisiya qoyuluşları və ticarətin inkişafina görə müqayisə edəcəyik. Naxçıvan MR əhalisi 463 min nəfərdir. Burada 35696 təsəsrrüfat subyekti var ÜDM 3.8 mlrd manat təşkil edir. Bunun 1 mlrd manatı sənaye sahəsinə, 0.5mlrd kənd təsərrüfatı mallarının üzərinə düşür. Ticarətin göstəricisi 1.7 mlrd manatdır. Cəmi respublika üzrə ticarət 44.2 mlrd manat təşkil edir. Bunun 25.6 mlrd manatı Bakı şəhərinin üzərinə düşür. Bu 50%-dən yüksəkdir. Respublika üzrə 2022-ci il 01.01 tarixinə investisiya qoyuluşları 16.8 mlrd manatdır, bunun 10.1 mlrd manatı Bakı şəhəri üzərinə düşür Bu investiyaların demək olar ki, əksəriyyəti sənaye sektoruna qoyulur. Amma bu iqtisadi rayonlar üzrə fərqlidir. Bunu iqtisadi rayonlar üzrə müqayisə edək.

Abşeron-Xızı rayonu 3.73 min m2-dır. Əhalisi 579 min nəfərdir. ÜDM-6.1 mlrd manatdır. Cəmi ÜDM-in 7%-ni təşkil edir. Sənaye sahəsi daha çox inkişaf edib (4.1 mlrd). İnvestisiya qoyuluşları Naxçıvan MR-ə qoyulan investisiyadan çoxdur. (1.2 mlrd). Bu göstərici əksər rayonlarda olduğundan çoxdur. Ticarət göstəricisi 1.8 mlrd manatdır. Bu göstərici Bakıda olan tcarət dövriyyəsinin 7% - ni təşkil edir. [8]

Gəncə-Daşkəsən iqtisadi rayonunun sahəsi 5.27 min m$^2$ təşkil edir. Əhalisi 612 min nəfərdir. Gəncə-Daşkəsən iqtisadi rayonunda 78.965 təsərrüfat subyekti fəaliyyət göstərir. ÜDM 2.2 mlrd. Manat təşkil edir, bundan 0.8 mlrd manatı sənaye sektoruna, 0.3 mlrd manatı kənd təsərrüfatının payına düşürdü. Ticarət bu iqtisadi regionda 1.8 mlrd manat təşkil edir, bu göstərici Abşeron-Xızıda olduğu kimi bu iqtisadi rayonda da Bakıdakı ticarət dövriyyəsinin 7%-ni təşkil edir. İnvestisiya qoyuluşu isə digər rayonlardan aşağıdır, yəni 0.4 mlrd manat təşkil edir.

Qarabağ iqtisadi rayonunun sahəsi 8.98 min m2 təşkil edir və 908 min nəfər əhalisi var. Bu iqtisadi rayonda təsərrüfat subyektlərinin sayı 79 minə çatır. ÜDM-də payı 2.8 mlrd manatdır. Ticarət bu rayonda 1 mlrd manat təşkil edir, investisiyaları 1.3 mlrd manatdır. Bu göstərici digər rayonlardan daha yüksəkdir. Yalnız Bakı şəhərindən geri qalır.

Düşünürəm ki, bu göstəricinin yüksək olması lazımdır. Çünki, Qarabağ iqtisadi rayonunun gələcək inkişafı üçün vacibdir. Qazax-Tovuz, Quba-Xaçmaz rayonlarında göstəricilər digər rayonlardan o qədər də fərqlənmir.

Lənkəran-Astara iqtisadi rayonunun ərazisi və əhalisi digərlərindən o qədər də fərqlənmədiyi halda təsərrüfat subyektlərinin sayı 124139 ədəddir. Bu digər bütün rayonlarda olduğundan daha çoxdur. Bütün iqtisadi rayonlar içərisində Dağlıq Şirvan ərazisi və əhalisi baxımından fərqlənməsə də ÜDM-də payı 0.96 mlrd manatdır, bu göstərici Şərqi Zəngəzur iqtisadi rayonunda da 0,96 mlrd manatdır yəni, çox aşağıdır. Bu göstərici digər rayonlarda yüksəkdir. Amma Dağlıq-Şirvan iqtisadi rayonunun araşdırılmasını düşünürük. Respublika iqtisadi rayonları arasında iqtisadi inkişaf cəhətdən zəif rayon hesab edilir. Ticarət göstəricisi 0.7 mlrd. manatdır, bu rayona investisiya qoyuluşu da (0,2 mlrd manat) çox aşağıdır. Göstəricilərinin belə aşağı olması bu rayonun daha dərindən tədqiq edilməsini vacib etdi.

***Dağlıq- Şirvan iqtisadi rayonunun təhlili***

*Cədvəl 3*

***Dağlıq- Şirvan iqtisadi rayonunun əsas göstəriciləri (01.01.2022-ci il)***

| Göstəricilər | Ərazisi min m2 | Əhalisi mln | Təsərrüfat ədəd | ÜDM mlrd | Ticarət mlrd | İnvestisiya |
|---|---|---|---|---|---|---|
| Dağlıq-Şirvan | 6.13 | 3.26 | 39340 | 0.96 | 0.7 | 0.2 |
| Ağsu rayonu | 1.2 | 82.1 | 9681 | 0.243 | *** | 0.04 |
| İsmayıllı | 2.07 | 88.2 | 18342 | 0.3 | 0.2 | 0.05 |
| Qobustan | 1.37 | 48.4 | 5100 | 0.12 | 0.07 | 0.1 |
| Şamaxı | 1.67 | ***** | 18415 | 0.3 | 0.3 | 0.12 |

*Mənbə: Azstat.org məlumatları əsasında tərtib edilmişdir.*

Dağlıq-Şirvan iqtisadi rayonunun göstəricilərindən görünür ki, bu rayonun tərkibinə Ağsu, İsmayıllı, Qobustan və Şamaxı daxildir. Ümumi respublika göstəricisi ilə Dağlıq Şirvanı müqayisə etsək görürük ki, bu rayonun ərazisi ümumi respublika ərazisinin 8% -ni təşkil edir. Əhalisi 326 min nəfərdir. Əhalisi digər iqtisadi rayonlardan, Sərqi Zəngəzur istisna olmaqla, çox azdır. ÜDM-i ümumi respublika ÜDM-nin 1%-ni təşkil edir Ticarət iqtisadiyyatın güzgüsüdür. Bu iqtisadi bölgələrdə ticarət 0.7 mlrd manat təşkil edir.

Bu iqtisadi rayona qoyulan investisiyalar 200 min manat təşkil etmişdir. Bu da iqtisadi regionlar arasında ən aşağı göstəricidir. Bu, 0.4 mlrd manat təşkil edir.

*Cədvəl 4*

***Dağlıq Şirvanın demoqrafik göstəriciləri***

| Göstəricilər | 2015 | 2017 | 2019 | 2020 | 2021 | 2021-də 2015-ə nəzərən dəyişiklik |
|---|---|---|---|---|---|---|
| Əhalinin sayı (mln nəfər) | 308 | 315 | 319 | 325 | 326 | 1.05 |
| Əhalinin 1000 nəfərinin təbii artımı | 14.0 | 10.8 | 11.0 | 7.7 | 6.2 | 0.44 |
| Doğulanlar | 20 | 16 | 16 | 15 | 13 | 0.65 |
| Ölənlər | 6.0 | 6.0 | 6.0 | 7.2 | 6.2 | 1.03 |

*Mənbə: Azstat.org məlumatları əsasında tərtib edilmişdir.[10]*

Cədvəl göstəricilərindən məlumdur ki, bu regionun əhalisində 6 ildə 1.05 dəfə artım olmuşdur. Digər rayonlarda olan artımdan o qədər də fərqlənmir (Bakı şəhəri, Abşeron şəhəri istisna olmaqla) Əhalinin 1000 nəfəri üçün təbii artım 2015-ci ildəki 14 nəfərdən azalaraq 6 nəfər olmuşdur. Yəni 44% azalmışdır. Doğulanların sayı 20 nəfərdən hər min nəfərə görə 13 nəfərə enmişdir, yəni 2015-ci ilə nəzərən 2021-ci ildə 65% azalmışdır. Ölənlərin sayı artmışdır.

Dağlıq Şirvanın sosial-iqtisadi göstəriciləri cədvəl 5-də verilmişdir.

*Cədvəl 5.*

***Dağlıq Şirvanın sosial-iqtisadi göstəricisi***

| Göstəricilər | 2015 | 2017 | 2020 | 2021 | 2021-2015-ə nəzərən artma-azalma |
|---|---|---|---|---|---|
| Həkimlərin sayı nəfər | 376 | 351 | 304 | 323 | -53 |
| Xəstəxanaların sayı | 11 | 11 | 5 | 5 | -6 |
| Əhalinin hər min nəfərinə düşən həkim | 12.2 | 11.1 | 9.4 | 9.9 | -2.3 |
| Pensiyaçıların sayı | 41827 | 42007 | 36889 | 34243 | -7481 |
| Pensiyaların orta məbləği | ** | 176 | 248 | 276 | +121 |
| Dovlət hesabına mənzil alanların sayı | - | 8 | 43 | - | - |
| Məktəbəqədər müəllimlər | 45 | 46 | 46 | 46 | +11 |
| Kitabxanaların sayı | 147 | 132 | 124 | 125 | -22 |
| Klubların sayı | 115 | 95 | 82 | 82 | -33 |
| Muzeylərin sayı | 10 | 10 | 10 | 10 | - |
| Qeydə alınmış cinayətkarların sayı | 442 | 460 | 449 | 493 | +51 |
| Cinayətdən zərərçəkənlərin sayı | - | 437 | 406 | 318 | -88 |
| Ağır cinayətlərin sayı | 27 | 56 | 45 | 35 | +8 |

*Mənbə: Azstat.org məlumatları əsasında tərtib edilmişdir.*

Cədvəl 5-dən məlumdur ki, Dağlıq Şirvan iqtisadi regionunda qeyd olunan göstəricilərdən bir neçəsi istisna olmaqla, hər biri 2015-ci il göstəricilərinə nəzərən azalmışdır. Məsələn: həkimlərin sayı 53 nəfər, xəstəxanaların sayı 6 ədəd, əhalinin hər nəfərinə düşən həkimlərin sayı 2.3 nəfər, pensiyaçıların sayı 7484 nəfər azalmışdır. Bu azalmanın səbəbləri doğrudan da maraq doğurur. Nəyə görə bu azalmalar baş vermişdir? Pensiya alanların sayının azalması ölənlərin sayının azalması ilə əlaqəli ola bilər, amma bu qədər azalma səbəbi ölüm sayı ilə əlaqədar deyildir, bu, fikrimizcə, pensiya sistemində əvvəlki illərdə baş verən qeyri-qanuni pensiya fəaliyyəti ilə bağlıdır.

Dövlət hesabına mənzil alanların sayı da 2020-ci ildə 43 nəfər olmasına baxmayaraq, 2021-ci ildə 1 nəfər belə dövlət hesabına mənzil almamışdır. Kitabxana, klubların sayında azalmalar mövcuddur. Muzeylərin sayında dəyişmə yoxdur. Qeydə alınmış cinayətlərin sayı artmışdır. Son illərdə zərərçəkənlərin sayı azalmışdır, uyğun olaraq ağır cinayətlərin sayı artmışdır.

Dağlıq Şirvan iqtisadi rayonunda iqtisadi fəal əhalinin sayı 165 min nəfərdir. 2015-ci ildə bu göstərici 152.9 nəfər idi, əhalinin sayı 12 min nəfərə qədər artmışdır. Məşğul əhalinin sayı 10 minə qədər artmışdır.

Muzdlu işçilərin sayı 28 min nəfərdən 300 nəfər azalmışdır, yəni 27.7 min nəfər təşkil edir. Muzdlu işçilərin nominal əməkhaqqı 269 manat artaraq 471 manata çatmışdır.Yeni iş yerlərinin sayı isə 4103 yer azalmışdır, yəni 2015-ci ildə 4680 yeni iş yeri olmuşdur, 2021-ci ildə bu göstərici 577 yer olmuşdur.

Dağlıq Şirvan iqtisadi rayonunun ticarət göstəricilərini təhlil etmək bu iqtisadi rayonun inkişafı haqqında rəy vermək üçün vacibdir, çünki qeyd etdiyimiz kimi ticarət iqtisadiyyatın güzgüsüdür.

Dağlıq Şirvanın ticarət göstəricilərini təhlil edərkən aydın olur ki, pərakəndə ticarət dövriyyəsi 2015-ci ildəki 502 mln manatdan artaraq 757 (+256 mln manat) mln manat olmuşdur. Pərakəndə ticarət dövriyyəsinin ümumi ölkə ticarət dövriyyəsində xüsusi çəkisi 2015-ci ildəki 1.95-dən 1.70-ə azalmışdır. Ümumiyyətlə bu iqtisadi rayonun ticarət dövriyyəsinin ümumi ölkə ticarət dövriyyəsində xüsusi çəkisi 1.70-ə bərabərdir, bu çox aşağı göstəricidir. Bu iqtisadi rayonun ümumi ticarət dövriyyəsində yerli istehsal məhsullarının xüsusi çəkisi yüksəkdir. Orta hesabla 70% satış yerli məhsulların payına düşür. Bu, çox müsbət göstəricidir. İdxal məhsullarının satış payı təqribən 30% təşkil edir. Bu iqtisadi rayonda mağazaların sayı 935 ədəd artmışdır. 2015-ci ildə 1589 ədəd mağaza, 2021-ci ildə isə 2524 ədəd olmuşdur. Topdansatış ticarət dövriyyəsi isə 275 mln. manat azalmışdır. Bir faktı da qeyd etmək yerinə düşər ki bu rayonda pərakəndə satış dövriyyəsində qeyri-neft məhsullarının xüsusi çəkisi orta hesabla 91% təşkil edir. Bu iqtisadi rayon turizmin inkişafında önəmli yer tutur.

Bu iqtisadi rayonda mehmanxanaların sayı son illərdə 3 ədəd artmışdır. Son 6 ildə 3 ədəd mehmanxana artmışdır. Bu ərazidə turizmin inkişaf etməsi vacibdir. Bu iqtisadi rayon ən turistik bölgədir, amma belə bir artım bu bölgədə bir durğunluğun göstəricisidir. Mehmanxanaların gəlirləri 2015-ci ildə artaraq 6244 min manat olmuşdur. Yəni 2.5 min man. artmışdır. Turistlərin sayının artması gecələyənlərin sayının artması və qiymətlərin artması ilə əlaqədardır.Turizmlə bərabər bu iqtisadi rayonda HOREKA sisteminin inkişafı da önəm kəsb edir.

İaşə dövriyyəsi 2015-ci ildə 16.2 min manat olmuşdur. 2021-ci ildə bu göstərici azalaraq 15.9 min manat olmuşdur. Əhalinin hər nəfərinə düşən göstərici də 51,8 manatdan 48.2 manata qədər azalmışdır. Əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 9.6 min manatdan 10.4 min manata qədər yüksəlmişdir. Əhalinin hər nəfərinə düşən göstərici isə 40 manatdan 39 manatadək çox cüzi miqdarda dəyişilmişdir.

Dağlıq Şirvan iqtisadi rayonu kənd təsərrüfatının inkişafı üçün əlverişli bir rayondur. Bu sahəni xarakterizə etmək üçün cədvəl 6-nın göstəricilərini təhlil edək.

Cədvəl 6-dan göründüyü kimi kənd təsərrüfatında əsas sahələr dənli bitkilərə aiddir. 2015-ci ildə bu sahələr 106.2 min hektar olmuşdur. 2021-ci ildə bu sahələr 24.6 min ha artaraq 130.8 min ha-ya çatdırılmışdır. Dənli bitkilər istehsalı da 2021-ci ildə 2015-ci ildəki göstəricini üstələyərək 382 min ton olmuşdur. Kartof əkinləri sahəsi 186 ha azalmışdı, lakin istehsal 2015-ci ildəki göstəricidən 6983 ton artıq olmuşdur.

Meyvə və giləmeyvə sahələri 2815 ha artmışdır, istehsal da artmışdır. Bu iqtisadi rayonda 2021-ci ildə pambıq əkin sahəsi olmamışdır, istehsal da təbii olaraq olmamışdır. Amma 2017-ci ildə 250 ha sahədə pambıq əkilmişdir.

Tütün əkin sahəsi də çox az olmuşdur (15 ha), istehsal azalaraq 41 ton olmuşdur.

Bu iqtisadi rayonda heyvanların, quşların sayı aşağıdakı kimi olmuşdur. İribuynuzlu mal-qaranın sayı 2015-ci ilə nəzərən azalaraq 135490 baş olmuşdur. Təxmini 15000 baş azalmışdır. İnək camışların sayı da 10000 başa qədər azalmışdır, amma arı ailələrinin sayı artmışdır. 2015-ci ildə 18331 arı ailəsi vardır. 2021-ci ildə bu göstərici 48436 ailəyə çatmışdır. Ət istehsalı çox az artaraq 11.7 min ton olmuşdur. Süd istehsalı 105.4 min tondan yüksələrək 128 min ton olmuşdur. Yumurta istehsalı 42 min ədəddən 56 min ədədə artmışdır. Yun istehsalı isə 100 ton azalmışdır. (1343 ton).

Avtomobil nəqliyyatı ilə yükdaşımalar 2021-ci ildə azalmışdır(-1471). Bu rayonda avtomobillərin sayı azalmışdır.Kommunikasiya xidmətlərinin həcmi isə 1572 min manat azalmışdır.

***Cədvəl 6***

***Dağlıq Şirvan iqtisadi rayonunun kənd təsərrüfatı göstəricilərinin təhlili***

| | Göstəricilər | 2015 | 2017 | 2020 | 2021 | 2021-2015-ci ilə nisbətən dəyişim |
|---|---|---|---|---|---|---|
| | **Kənd təsərrüfatı əkin sahəsi** | | | | | |
| 1 | Dənli bitkilər | 106173 | 112641 | 110885 | 130781 | +24608 |
| 2 | Pambıq | - | 2501 | 2600 | - | - |
| 3 | Tütün | - | 15 | 22 | 15 | |
| 4 | Şəkər çuğunduru | 365 | 102 | 161 | 458 | +93 |
| 5 | Kartof | 1738 | 1482 | 1544 | 1552 | -186 |
| 6 | Bağlar və giləmeyvələr | 5351 | 6358 | 8015 | 8166 | +2815 |
| | **Kənd təsərrüfatı istehsalı tonla** | | | | | |
| 1 | Dənli bitkilər | 318979 | 290140 | 324804 | 382747 | +63768 |
| 2 | Pambıq | - | 2807 | 1525 | - | - |
| 3 | Tütün | - | 27 | 60 | 41 | - |
| 4 | Şəkər çuğunduru | 9125 | 970 | 4377 | 21284 | +12154 |
| 5 | Kartof | 13300 | 15419 | 1845 | 21284 | +6983 |
| 6 | Meyvə və giləmeyvələr | 21017 | 22934 | 24964 | 26026 | +5009 |

*Mənbə: Azstat.org məlumatları əsasında tərtib edilmişdir.*

### *Nəticə*

Bütün iqtisadi rayonlar içərisində Dağlıq-Şirvan ərazisi və əhalisi baxımından fərqlənməsə də ÜDM-də payı 0.96 mlrd manatdır, bu göstərici Şərqi Zəngəzur iqtisadi rayonunda da 0,96 mlrd manatdır yəni, çox aşağıdır. Bu göstərici digər rayonlarda yüksəkdir. Amma Dağlıq-Şirvan iqtisadi rayonunun araşdırılmasını düşünürük. Respublika iqtisadi rayonları arasında iqtisadi inkişaf cəhətdən zəif rayon hesab edilir. Ticarət göstəricisi 0.7 mlrd. manatdır, bu rayona investisiya qoyuluşu da (0,2 mlrd manat) çox aşağıdır. Göstəricilərinin belə aşağı olması bu rayonun daha dərindən tədqiq edilməsini vacib etdi.

Dağlıq-Şirvan rayonunun bütün göstəricilərini təhlil etdikdən sonra aşağıdakı nəticəyə gəlirik:

- Dağlıq-Şirvan iqtisadi rayonunun ÜDM-də payı 0.96 mln manatdır;
- Dağlıq-Şirvan iqtisadi rayonunun demoqrafik göstəriciləri, əhalinin sayı artmışdır, hər min nəfərinə düşən təbii artım 0.44-dür;
- Dağlıq-Şirvan iqtisadi rayonunda səhiyyə sektorunda həkimlərin sayı azalmışdır, pensiyaçıların sayı 7484 nəfər azalmışdır;
- pensiyaların orta məbləği artmışdır.(+121);
- Məktəbəqədər müəssisələrin sayı artmışdır,kitabxanaların, klubların sayı azalmışdır;
- cinayətlərin sayı artmışdır;
- iqtisadi fəal əhalinin sayı artmışdır;
- Yeni iş yerlərinin sayı azalmışdır (4103);
- Ticarət göstəriciləri artmışdır, topdansatış dövriyyəsi azalmışdır, mağazaların sayı çoxalmışdır;
- Turizm inkişafı, 2021-ci ildə mehmanxanaların gəliri 2928.3 manat artmışdır;
- İctimai-iaşə dövriyyəsi azalmışdır, iaşə obyektlərinin sayı artmışdır;
- Kənd təsərrüfatında əkin yerlərinin sayı çoxalmışdır;
- Kənd təsərrüfatı bitkilərinin istehsalı ton hesabı ilə artmışdır;
- Tikinti işlərində əsas fondların istifadəyə verilməsi artmışdır, tikinti tikənlərin sayı artmışdır;

- Sənaye göstəriciləri artmışdır (sənaye müəssisələrinin sayı 54 ədəd (+13), sənaye məhsullarının dəyəri 88589 min manat (+71449) olmuşdur.

## ƏDƏBİYYAT


1. "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 07 iyul 2021 tarixli Fərmanı.
2. M.M. Mahmudov, İ.M. Mahmudova. "Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi", Bakı, 2011.
3. V.S. Əyyubov, A.M. Tağıyev. "Milli iqtisadiyyatın tənzimlənməsi", Bakı, 2014.
4. M.A.Əhmədov, A.C.Hüseyn. "İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları", Bakı, 2011.
5. Ə. Nuriyev. "Regional siyasət və idarəetmənin əsasları", Bakı, 2011.
6. Coğrafi vəsait, "Abituriyent" jurnalının 1-ci nömrəsinin əlavəsi, Bakı, 2021.
7. Pashaev N.A., Ayupov N.G., Eminov Z.N. Ekonomichesko-sotsialnaia i politicheskaia geografiia Azerbaidzhanskoi Respubliki. – Baku, 2010. – 416 s. [Пашаев Н.А., Аюпов Н.Г., Эминов З.Н. Экономическо-социальная и политическая география Азербайджанской Республіки. – Баку, 2010. – 416 с.].
8. Gosudarstvennye programmy: Sotsialno-ekonomicheskoe razvitie regionov Azerbaidzhanskoi Respubliki (2003- 2008; 2009-2013; 2014-2018,2018-2023), [Государственные программы: Социально-экономическое развитие регионов Азербайджанской Республики (2003-2008; 2009-2013; 2014-2018, 2018-2023)].
9. Eminov Z.N. Naselenie Azerbaidzhana. – Baku, 2005. – 560 s. [Эминов З.Н. Население Азербайджана. – Баку, 2005. – 560 с.].
10. Https://stat.gov.az/
11. Https://igaz.az/



***Захид Сарван оглу Джафаров***
***магистр Бакинского Университета Евразии,***
***научный руководитель Муслимат Аллахверди кызы Аллахвердиева***
***д.э.н., доцент, Азербайджанский Государственный***
***Экономический Университет***
***Эл. Адрес: allahverdiyeva_muslumat@mail.ru***


## Современная характеристика развития экономических районов Азербайджанской Республики (Нагорно-Ширванский экономический район)


***Резюме***

Государством на современном этапе реализуются комплексные меры по полному использованию потенциала регионов, в результате которых наша страна добьется развития предпринимательства в регионах, сокращения бедности, сохранения макроэкономической стабильности. Поэтому место и роль каждого региона в экономике страны следует изучать комплексно.

**Цель исследования -** Целью исследования является разработка теоретической базы изучения социально-экономического развития региона и предоставление практических рекомендаций по реализации выявленных приоритетов в целях формирования устойчивого социально-экономического развитиа региона.

**Методология исследования -** системный и комплексный подход к исследуемой проблеме, а также методы, связанные со сравнительным анализом, обобщением и оценкой характеристик современного развития экономических районов Азербайджанской Республики (Нагорно-Ширванский экономический район) были использованы с различных аспектов.

**Прикладная значимость исследования -** полученные результаты могут быть использованы для решения теоретических и практических задач, связанных с особенностями современного развития экономических районов Азербайджанской Республики.

**Результаты исследования** - заключаются в подготовке предложений и рекомендаций по оптимизации современного развития экономических районов Азербайджанской Республики с учетом глобальных вызовов и современного уровня развития страны.

**Оригинальность и научная новизна исследования -** изучен мировой опыт решения рассматриваемых в статье проблем, сформированы подходы в соответствии с требованиями современных условий. Проанализированы направления современного развития экономических районов Азербайджанской Республики на уровне международной, региональной и отдельных национальных экономик.

***Ключевые слова: социальное, регион, экономическое развитие, государственная программа, Зангезур.***

***Zahid Sarvan Jafarov***
***master, Baku University of Eurasia,***
***Muslimat Allahverdi Allahverdieva***
***doctor of economic sciences, Associate Professor,***
***Azerbaijan State University of Economics (UNEC)***
***allahverdiyeva_muslumat@mail.ru***

## *Modern characteristics of the development of the economic regions of the Republic of Azerbaijan (Daglik-Shirvan economic region)*

***Summary***

At the present stage, the state is implementing comprehensive measures to fully use the potential of the regions, as a result of which our country will achieve the development of entrepreneurship in the regions, reduce poverty, and maintain macroeconomic stability. Therefore, the place and role of each region in the country's economy should be studied comprehensively.

**Purpose of the study** - The purpose of the study is to develop a theoretical framework for studying the socio-economic development of the region and provide practical recommendations for the implementation of the identified priorities in order to form a sustainable socio-economic development of the region.

**The research methodology** - is a systematic and integrated approach to the problem under study, as well as methods related to comparative analysis, generalization and assessment of the characteristics of the modern development of the economic regions of the Republic of Azerbaijan (Nagorno-Shirvan economic region) from various aspects. were used.

**Applied significance of the study** - the results obtained can be used to solve theoretical and practical problems related to the peculiarities of the modern development of the economic regions of the Republic of Azerbaijan.

**The results of the study** - consist in the preparation of proposals and recommendations for optimizing the modern development of the economic regions of the Republic of Azerbaijan, taking into account global challenges and the current level of development of the country.

**The originality and scientific novelty of the research** - the world experience in solving the problems considered in the article is studied, approaches are formed in accordance with the requirements of modern conditions. The directions of the modern development of the economic regions of the Republic of Azerbaijan at the level of international, regional and individual national economies are analyzed.

***Key words: social, region, economic development, state program, Zangezur.***